AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

**ƏLİ HÜSEYN OĞLU ŞAMİLOV**
**(ƏLİ ŞAMİL)**

# BİOBİBLİOQRAFİK GÖSTƏRİCİ

"Elm və təhsil"
Bakı - 2019

**Tərtibçi: Nailə Əskər**
**Elmi redaktor: Ramiz Əskər**
**Mətn tərtibatı: Nizami Əlisoy**

**Əli Hüseyn oğlu Şamilov (Əli Şamil)**: Biobiblioqrafik göstərici Bakı, "Elm və təhsil", 2019, 172 səh.

*Bu biobiblioqrafik göstərici Əli Hüseyn oğlu Şamilovun (Əli Şamil) həyatı və fəaliyyətinin əsas tarixlərini, əsərlərinin biblioqrafiyasını – kitab, məqalə və məruzələrini, həmçinin onun haqqında yazılmış mənbələri və s. əks etdirir. Biobiblioqrafik göstərici folklorşünaslıq və əbədiyyatşünaslıq sahəsində çalışan alim və mütəxəssislər, yaxın keçmişimizlə maraqlanan ali məktəb tələbələri, o cümlədən geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

**ISBN 978-9952-8360-9-7**

**© *Əli Şamil, 2019***

## İÇİNDƏKİLƏR

Tərtibçidən ........................................................ ..................5
Əli Şamilin həyatı, yaradıcılığı və ictimai fəaliyyətinin əsas tarixləri ................................................. ..................6
Ramiz Əskər. Yaxın keçmişimizə Əli Şamil baxışı . ....... 8
**Ə s ər l ər i**
Kitabları ........................................................ ..................16
Tərtib etdiyi kitablar ................................... .................. 18
Redaktoru olduğu kitablar .......................... .................. 20
**M ə q a l ə l ə r i, m ə r u z ə l ə r i, te z i s l ə r i**
Azərbaycan dilində....................................... ..................23
Rus dilində.................................................... ..................63
Albaniyada.................................................... ..................64
Abxaziyada ................................................... ..................65
Acariyada....................................................... ..................66
İraqda ............................................................ ..................66
İranda ............................................................ ..................66
İsvecdə .......................................................... ..................70
Qazaxıstanda................................................. ..................70
Qırğızıstanda................................................. ..................76
Krımda ........................................................... ..................76
QKTC-də ....................................................... ..................77
Kosovada ...................................................... ..................78
Moldovada .................................................... ..................79
Özbəkistanda ................................................ ..................79
Rusiya Federasiyası: Altayda ....................... ..................80
Başqırdıstanda .............................................. ..................80
Dağıstanda .................................................... ..................81
Qaraçay-Çərkəzdə ........................................ ..................83

Rusiyada ........................................................ ..................83
Rusiya Federasiyasında yaşayan xalqların mətbuatında ..85
Tatarıstanda ................................................. ..................86
Türkiyədə...................................................... ..................86
Türkmənistanda ............................................ ..................102
Ukraynada...................................................... ..................106
Əli Hüseyn oğlu Şamilovun (Əli Şamil) məruzə ilə
çıxış etdiyi elmi simpoziumlar ..................... ..................107
TRT və İçtimai radionun "Qorqud Ata"
proqramındakı verilişlər ............................... ..................125
Azərbaycan ................................................ ..................125
Başqırdıstan, Tatarıstan və Çuvaşiya ........... ..................137
Doğu və Batı Türküstan................................ ..................141
Krım, Qaqauz Yeri və Balkanlar ........................... ....................148
Quzey Qafqaz ....................................................... ....................150
Sibir .............................................................. ..................152
**Müsahibələr............................................... ..................154**
**Yaradıcılığı haqqında................................ ..................156**

# TƏRTİBÇİDƏN

Əli Hüseyn oğlu Şamilovun (Əli Şamil) əsərlərinin bio-biblioqrafik göstəricisi 1964-2019-cu illəri əhatə edir. Burada onun həyatı, yaradıcılığı və ictimai fəaliyyətinin əsas tarixlərinə diqqət yetirilmiş, monoqrafiyaların, tərtib etdiyi və nəşrə hazırladığı kitabların, elmi simpozium, konqres, konfrans və sessiyalarda oxuduğu məruzələrin, dövri mətbuatda, eləcə də ədəbi-bədii toplularda çap edilmiş publisistik və ədəbi yazıların, müsahibələrin adları toplanmışdır. Müəllifin türk, rus və digər dillərdəki məruzə, məqalə və tezislərinin çıxdığı kitabların, toplu və dərgilərin adları da biblioqrafiyada öz əksini tapmışdır.

Azərbaycan elminin və jurnalistikasının inkişafında Əli Şamilin rolu da unudulmamış, haqqında yerli və əcnəbi alimlər tərəfindən müxtəlif səpkidə qələmə alınmış yazıların göstəriciləri də ayrıca bölmədə verilmişdir.

Biobiblioqrafik göstəricidə bütün materiallar bölmələr üzrə qruplaşdırılmış və xronoloji ardıcıllıqla əlifba sırası ilə düzülmüşdür.

# ƏLİ HÜSEYN OĞLU ŞAMİLOVUN (ƏLİ ŞAMİL) HƏYATI, YARADICILIĞI VƏ İCTİMAİ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

**Əli Hüseyn oğlu Şamilov (Əli Şamil)** 5 iyun 1948-ci ildə Ermənistan Sovet Sosialist Respublikası Basarkeçər rayonunun (keçmiş Göyçə mahalı) İnəkdağ kəndində anadan olmuşdur.

**1954-1962**-ci illər **-** İnəkdağ kəndindəki səkkizillik məktəbdə təhsil almışdır.

**1962-1965**-ci illər **-** Zod kəndindəki onbirillik orta məktəbdə təhsil almışdır.

**1968-1973**-cü illər **-** Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil almışdır.

**1968-1973**-cü illər **-** Azərbaycan Dövlət Universitetinin ictimai həyatında və tələbə elmi cəmiyyətinin işində yaxından iştirak etmişdir.

**1973-1992**-ci illər **-** "Şərq qapısı" ("Sovet Naxçıvanı") qəzetində işləmişdir.

**1993-2004**-cü illər **-** Azərbaycan Ensiklopediyasında "Uşaq Ensiklopediya" və "Türk Xalqlarının Məşhurları Ensiklopediya" qruplarının rəhbəri olmuşdur.

**1998-2007**-ci illər **-** Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda (**1998-2003**-cü illərdə bu qurum Azərbaycan Milli Elmlər Akademiyasının "Folklor Sarayı" Elmi-Mədəni Mərkəzi adlandırılmışdır) çalışmışdır.

**2007**-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda Beynəlxalq əlaqələr bölümünə rəhbərlik edir.

**1964**-ci il - mətbuatda ilk yazısı çap olunmuşdur. Onun publisistik məqalələrinə yalnız işlədiyi "Şərq qapısı" ("Sovet Naxçıvanı") qəzetində deyil, Bakıda nəşr olunan, o dövrdə respublika mətbuatı sayılan qəzet və jurnalların əksəriyyətində, eləcə də Sumqayıt şəhərinin (1969, iyul), Qusar (1970, iyul), Zaqatala (1971, iyul), Astara (1972, iyul) və b. rayonların qəzetlərində də rast gəlmək olar. Sovetlər Birliyi zamanında əksər muttəfiq respublika, muxtar respublika, muxtar vilayətlərin və diyarların milli dildə nəşr olunan qəzet və jurnallarında da onun yazılarına, hazırladığı səhifələrə rast gəlmək mümkündür.

**1964-1988**-cı illərdə yazılmış publisistik məqalələrin bir qismini aktuallığını itirdiyini nəzərə alaraq kitaba daxil etmədik.

# YAXIN KEÇMİŞİMİZƏ ƏLİ ŞAMİL BAXIŞI

Əli Şamili 1972-ci ildən tanıyaram. Həmin il mən Azərbaycan (indiki Bakı) Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olmuşdum. Bir-iki ay sonra fakültədə oxuyan bütün tələbələri adbaad tanıyırdım. Onların arasında Əlinin xüsusi yeri vardı. Çünki o, fakültə tələbə elmi cəmiyyətinin (TEC) sədri idi, buna görə ona "TEC Əli" deyirdilər. Mən elmi işlərə çox həvəs göstərirdim. İkincisi, müəllimlər də, tələbələr də Əliyə dərin hörmət bəsləyirdilər. Nəhayət, Əli mənim eloğlum idi. Bəri başdan deyim ki, mənim jurnalist və sonralar alim kimi yetişməyimdə onun müstəsna rolu var, bu barədə yeri gəldikcə məlumat verəcəyəm.

Əli bizim heç vaxt eşitmədiyimiz şəxslər və şeylər barədə danışır, bəzi məsələlərə gözümüzü açırdı.Misal üçün, Əmin Abid adını mən ilk dəfə ondan eşitmişdim. Zəki Vəlidi Toğan, Xalid Səid Xocayev, Əhməd Baytursun, Numan Çələbi Cihan, Abbasqulu ağa Şadlinski kimi şəxslər haqqında məlumatları, Solovki, QULAQ, repressiya ilə bağlı bilgiləri də ondan almışdım. Gilqamış dastanından tutmuş, Xəstə Hasan, Aşıq Şenlik, Aşıq Veysəl, Qarani, Sümmani, İslam Ərdənər, Aşıq İskəndər Ağbabalıya qədər Azərbaycan aşıq mühitində az tanınan sənətkarların, Məxdumqulu, Bəkir Çobanzadə, Abdulla Tukay, Şahzadə Babiç kimi şairlərin adı Əlinin dilindən düşmürdü.

Əli ən yeni tarixin ən gözəl bilicisi idi. Arxivə getməyə əsla ehtiyac yoxdu, sadəcə olaraq ona yaxınlaşıb filan tarixi hadisə, filan bolşevik, filan komissar, filan daşnak, filan ictimai-siyasi xadim barədə sual verib dolğun cavab almaq mümkün idi. Bir sözlə, Əli canlı, gəzən ensiklopediya idi. Onun cavabları bəzən

qorxulu olurdu. Məsələn, biz hamımız indi də bu fikirdəyik ki, Bəkir Çobanzadə SSRİ-ni yıxmaq uğrunda deyil, türk xalqlarının inkişafı üçün daha yaxşı şərait uğrunda mübarizə aparmışdır. Əli isə işin əslini və gerçəkləri çox yaxşı bilirdi.

Matrosların Kronştadt üsyanında (1921) "bəşəriyyətin dahi rəhbəri və müəllimi" Leninin əmri ilə qiyamçılarla bərabər bolşevik tərəfdarlarının da qəddarlıqla məhv edilməsi barədə məlumatları biz vahimə içində dinləyirdik. Nəriman Nərimanovun ölümünün gerçək səbəbi, həmin dövrdə "nəsillərə nümunə" silsiləsindən bizə təqdim və təbliğ edilən yerli bolşeviklərin xəyanəti, leninizmin iç üzü bizi dəhşətə salırdı. O vaxtlar bu haqda danışmaq böyük cəsarət tələb edirdi. Onu da bilirdik ki, Əli nə deyirsə, düz deyir, onun sözündə yalan yoxdur. Yəni Əli gerçək dissident idi və mən onun hər bir yazısının altına öz imzamı qoya bilərəm.

Bu biblioqrafiyada 1000-dən artıq mənbə və məxəz [1] vardır. Bunların arasında ən çox əsər məşhur Azərbaycan şairi, ədəbiyyatşünası və folklorşünası, bolşevik repressiyasının qurbanı Əmin Abid Mütəllim oğlu Əhmədova (Gültəkin, 1898-1938) həsr olunmuşdur. Əli Şamil onun haqqında hələ 1972-ci ildən bəri yazmağa başlamışdır. Əmin Abidin "Azərbaycan türklərinin ədəbiyyat tarixi" monoqrafiyası, türk ədəbiyyatında bayatı-mani janrı, "Kitabi-Dədə Qorqud" dastanları, Firdovsi, Füzuli, 17-ci əsr Azərbaycan ədəbiyyatı, Yunis İmrə, Qaracaoğlan, Mirzə Fətəli, Mirzə Şəfi, M.Ə.Sabir haqqında məqalələri Əli Şamil tərəfindən dərindən təhlil edilmişdir. O bu mövzularda onlarca məqalə qələmə almış, Əmin Abidin "Buzlu cəhənnəm" adlı kitabını çapdan buraxmışdır. Həmin kitaba yazdığı ön söz Təbrizdə çıxan "Mehri-azadi" qəzetinin 2002-ci il avqust nömrələrində 8 yazı halında təfriqə edilmişdir. Əli Əmin Abid

[1] Məxəz – Bir şeyin alındığı yer, əsil yeri; mənbə

haqqında bir çox elmi məclislərdə çıxışlar etmiş, elmi nəşrlərdə yazılar yazmışdır. Onun Türkiyədə nəşr olunan “Milli Folklor”, “Bilge” və “Erciyes” jurnallarındakı sanballı məqalələri xüsusilə diqqətə şayandır.

Dəqiq yadımdadır, akademik Bəxtiyar Vahabzadə, professor Qulu Xəlilov, dosent Nəriman Zeynalov hər dəfə Əli Şamilə rast gələndə onun Əmin Abidlə bağlı apardığı tədqiqatları təqdir edir, bu mövzuda dissertasiya müdafiə etməyi təkidlə məsləhət görürdülər. Lakin o dövrün siyasi mühiti, elmi və ictimai fikri buna hələ hazır deyildi. Təəssüf...

Əli Şamilin biblioqrafiyasındakı ən mühüm məsələlərdən birini türk xalqlarının problemləri təşkil edir. Xaricdəki soydaşlarımızın siyasi vəziyyəti, azadlıq uğrunda mübarizəsi, ədəbi, elmi, tarixi və mənəvi problemləri Əli Şamilin daim diqqət mərkəzində olmuşdur. Onun Ədalət Tahirzadə ilə birlikdə hazırladığı “Türk xalqlarının tanınmış adamları” (ensklopediyası sözlüyünün layihəsi) gözəl və xeyirxah işin başlandığını xəbər verirdi. Coğrafi və mənəvi baxımdan böyük əhəmiyyət daşıyan bu iş Azərbaycan ensklopediyasında 2004-cü ildə baş verən hadisələrdən sonra durduruldu.

Eləcə də “Tanıdığım insanlar”, “Dastanlaşmış ömürlər”, “Quzey Kıbrıs”, “Uyğur, qaqauz, Quzey Qafqaz türklərinin folkloru və ədəbiyyatı”, “Colan türkmanları”, “Krım sevgisi” kitabları bunlara parlaq misaldır. Elə bir türk xalqı yoxdur ki, Əli Şamil ondan bəhs etməsin. Tanınmış mətbuat işçisi Tahir Aydınoğlu “Jurnalist Türk dünyasına pəncərə açır” yazısında bu barədə geniş məlumat vermişdir.

Zənnimcə, Əli Şamil bu sahədə Kıbrıs, Krım tatarları və qaqauzlar haqqında daha çox əsər yazmışdır. 1974-cü ildə adada başlayan faciələr, Kıbrısda türklərin məhv edilməsi, bədnam enozis, EOKA-1, EOKA-2, keşiş Makariosun və Samsonun tö-

rətdiyi cinayətlər, Türkiyənin Kıbrısa desant çıxarması və imperializmə qarşı mübarizəsi, Yunanıstanda "qara polkovniklər" xuntasının devrilməsi, nəhayət, QKTC[2] -nin elanına gətirib çıxaran hadisələr gözlərimiz qarşısında baş verdiyindən Əli Şamil Kıbrıs probleminə daha çox diqqət yetirmişdir. Onun qələmə aldığı "Kıbrıs Azerbaycan Mediasında", "Kıbrıs "Azadlık" Gazetesi Sayfalarında", "Ayna" Gazetesinin Kıbrıs Hakkında Yazdıkları", "Araştırmacı Gazeteci İsmail Umutlu ve Kıbrıs Konusu", "Azerbaycan`da Kıbrıs Türk Milli Mücadele Konusu", "Türk dünyasında Kıbrısın öz yeri var" və onlarca başqa yazılar dediklərimizi təsdiq edir.

Krım tatarlarının problemləri də Əli Şamili dərindən məşğul etmişdir. 20-ci əsrin əvvəllərində onların milli dövlət qurmaq uğrunda apardıqları mübarizə, İkinci Dünya Müharibəsi zamanı ana vətəndən sürülmələri, min bir əzabla Krıma qayıtmaları və bəzi digər məsələlər haqqında Əli Şamilin çox təsirli yazıları var. "Qanı ilə şeir yazan, milləti üçün dövlət quran Numan Çələbi Cihan", "Krım tatarlarının qara günü" həmin qəbildən olan məqalələrdir. Əli Şamilin Krım kontekstində məşhur dilçi Bəkir Çobanzadə və tanınmış yazıçı Çingiz Dağçı haqqında qələmə aldığı yazılar xüsusilə seçilir. Onun"Bekir Sıtkı Çobanzade'nın Türk Halklarının Kültürel Etkileşim ve Değişiminde Rolu" və "Birleşik Türk-Tatar devleti yaratmak uğrunda şehit olan Bekir Çobanzade" adlı məqalələri çox əlamətdardır. Bunlar İstanbulda, Simferopolda və Türküstan şəhərində (Qazaxıstan) çıxan məcmuələrdə dərc olunmuş və elmi dövriyyəyə daxil edilmişdir. Əli Şamilin "Görkəmli Krım tatar ədibi Cengiz Dağçı vətən torpağına tapşırıldı", "Gözlənilən ölümün acısı və ya Çingiz Dağcı dünyadan köçdü", "Çingiz Dağçının "Korkunç yıllar" romanında azərbaycanlı obrazı"

[2] Quzey Kıbrıs Türk Cümhuriyyəti

məqalələrionun həyatına, sənətinə və mübarizəsinə həsr olunmuşdur.

Türklərin başıbəlalı başqa bir xalqı olan qaqauzların adını mən ilk dəfə Əli Şamildən eşitmişəm. Həmin dövrdə Azərbaycan gənclərinin siyasi dünyagörüşü vəmilli şüuru məhdud, biliyi səthi, savadı az idi. Əli Şamil yazıları və şifahi təbliğatı ilə maarifçilik funksiyasını yerinə yetirirdi. Yadımdadır ki, ötən əsrin son rübündə qaqauzların "Ana sözü" qəzeti oxucu qıtlığı üzündən bağlanmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Əli Şamil digər vətənpərvər insanlarla birlikdə abunə yazılışı kampaniyasına başladı və qısa müddət ərzində Azərbaycanda yüz minlərlə insan "Ana sözü"nün oxucusu oldu. Bu münasibətlə Əli Şamilin "Qardaş xalqımıza böyük maraqlıq" adlı məqaləsi həmin qəzetdə dərc olundu. Alimin Kişinyovda və Komratda çap edilən "Azerbaycanda Gagauzlar", "Azerbaycanda Gagauzlarla İlgili Kaynaqlar" adlı məqalələri dərin rəğbətlə qarşılandı.

Əli Şamilin qaqauz ədəbiyyatı ilə bağlı fəaliyyəti də təqdirə layiqdir. Qaqauz şairəsi Tudora Arnautun "Qaqauzam, Bucaqdır yerim" adlı kitabı haqqında onun dövri mətbuatda "Ələsgər bulağından su içən qaqauz qızı", "Qaqauz qızı, qaqauz sözü", "Həmkarımızın şeir payı", "Ortaq ədəbiyyata doğru", "Qaqauz ədəbiyyatı" adlı məqalələri çıxmışdır. Əli Şamil bununla kifayətlənməmiş, İranda "Varlıq" və "Mişov dağı" dərgilərində "Bir qaqauz şairi" adlı yazılarla çıxış etmişdir.

Qaqauz poeziyasından söz düşmüşkən, 2010-cu ildə Əli Şamil tanınmış şair Todur Zanetin şeirlərini mənə göndərərək təcili şəkildə tərcümə etməyimi istədi. Əlimdəki işləri bir kənara buraxaraq Todurun "Ana dilim" adlı kitabını tərcümə və nəşr etdim. Eyni şey 2011-ci ildə də təkrarlandı. Bu dəfə Əli müəllim Bəkir Çobanzadə və Abdulla Tukayın kitablarını, 2014-cü ilsə isə

Toktoqulun kitabını çevirməyi tapşırdı. Doğrusu, mən xeyli müqavimət göstərdim, lakin onun sarsılmaz nüfuzu qarşısında təslim oldum. Bugün həmin tərcümələrə görə Əli Şamilə təşəkkür edirəm.

Əli Şamil digər türk xalqlarının problemləri barədə də əsərlər qələmə almışdır. Yer məhdudluğunu nəzərə alaraq bunlar haqqında bir-iki nümunə ilə kifayətlənək. “Azadlıqsevər uyğurlar üçün şəhid şair Lütfulla Mütəllib nümunəsi”, “İnamını itirdiyindən ömrünü bitirən Qamzat Acigəldiyev (26 yaşında ölümə sürüklənən noqay şairi)”, “Mustafa Çokay − türklük savaşçısı”, “Osman Batur-qəhrəman türk”, “Toktoqul Satılqanov”, “İtkilərimiz. Folklorşünasliğimizin ağsaqqalı Ata Tərzibaşı dünyadan köçdü”, “Qarslı Aşıq İslam”, “Kumuk Edebiyatının Düneni ve Bugünü”, “Nogay Edebiyatı Eskiden ve Şimdi”, “Colan türkləri - qarabağlıların tale qardaşları”, “Colan türklərinin folkloru” və s. və i.a.

Son illər milli dəyərlərimizə sahib çıxanların ardtdığı, turizmin sürətlə inkişaf etdiyi bir dövrdə Əli Şamilin 1930-1950-ci illərdə Qazaxıstana sürgün olunmuş soydaşlarımız haqqında yazdığı “Sürgün olunanların sorağı ilə”, Azərbaycanda iki min kilometir uzaqda, İranın güneyində yaşayan, özlərini bizim bir parçamız hiss edən qaşqaylar haqqında yazdığı “Qaşqay elinə səfər”, eləcə də yüz əlli ilə yaxın Rus imperiyasının tərkibində olsaq da mədəni əlaqələrimizi yüksək səviyyədə qura bilmədiyimiz qırğız elləri haqqında yazdığı “Tarixi köklərin sorağı, ulu əcdadların izi ilə, yaxud Isık göl məni nədən kövrəltdi” silsilə məqalələri məlumat-sorğu kitabçası mahiyyəti daşıyır.

Əli Şamilin Axıska türkləri, özəlliklə Xəstə Hasan haqqında yazıları az deyil. Hələ 1984-cü ildə “Sovet Naxçıvanı” və 1986-cı ildə “Sovet Gürcüstanı” qəzetlərində dərc etdirdiyi ilk mə-

qalələr 2012-ci ildə qarşımıza “Axıskalı Xəstə Hasan (şeirləri və şeirlərinin yaranması haqqında söhbətlər)” kitabı olaraq çıxır. Bu əsər “Ahıska” qəzetində 2013-cü ilin yanvarından dekabrın sonunadək hər həftə təfriqə olunmuş və 46 məqalə şəklində dərc edilmişdir.

Görkəmli qələm sahibinin zəngin biblioqrafiyasında “Koroğlu” və Naxçıvan mövzuları xüsusi yet tutur. Məlum olduğu kimi, “Koroğlu” dastanı türk dünyasının ən çox yayılmış folklor nümunələrindən biridir. Onun tacik, erməni, gürcü versiyonları da var. Əli Şamil bu dastan haqqında vaxtilə bir sıra elmi-nəzəri məqalələr yazmışdır. 2000-ci ilin əvvəllərində Əli Kamalinin arxivində ortaya çıxan “Koroğlu” eposu ilə bağlı qələmə aldığı yazılarla koroğlusünaslığa mühüm töhfələr vermişdir. Onun “Koroğlu” eposunun variantları Əli Kamali arxivində”, “Əli Kamali arxivindəki “Koroğlu” eposunun variantlarında mətnşünaslıq məsələləri”, “Koroğlu” dastanının (Əli Kamali arxivindəki variantlar)” təkrar nəşrinə ön söz”, “Əli Kamali arxivindəki “Koroğlu” dastanında Eyvaz obrazı” və başqa məqalələri, simpozium və konfranslardakı çıxışları folklorsünaslığa xüsusi dəyər qatmışdır.

Biblioqrafiyada Naxçıvan haqqında informasiya və zarisovka xarakterli xeyli yazının olması məni təəccübləndirdi. Uzaq Şərqdən tutmuş Volqaboyuna, Şimali Qafqaza qədər böyük bir coğrafiyada çıxan mətbuat orqanlarında Əli Şamilin Naxçıvan haqqında reklam mahiyyəti daşıyan yazılarının dərc edilməsi əslində bir vətənpərvərlik örnəyidir. Məsələ orasındadır ki, iqtisadi cəhətdən zəif olan Naxçıvana əlavə maliyyə cəlb etmək üçün Əli Şamil diyarın təbii gözəllikləri, balneoloji iqlimi, astma xəstəliyinin birincimüalicəsi olan duz mədənləri haqqında dolğun bir məqalə yazaraq onu rus dilinə çevirtdirmiş və müxtəlif rayon, şəhər və vilayət qəzetlərinin redaksiyalarına

göndərmişdir. Nəticədə SSRİ-nin müxtəlif regionlarından Naxçıvana axın başlamışdır. Bu dəfə də növbəproblemi ortaya çıxmışdır. Əli Şamil baş həkimlə və digər vəzifə sahibləri ilə danışaraq iki növbə yaratmağı təklif etmişdir. Növbələrdən biri ancaq türk əsilli soydaşlarımız üçün nəzərdə tutulmuşdur. Naxçıvana gələn xəstələr Əlinin məqaləsi çıxan rusca qəzetləri də özləri ilə gətirdikləri üçün bugün onların adlarını bu biblioqrafiyaya yerləşdirmək mümkün olmuşdur.

Əli Şamilin xaricdə yaxşı tanınmasının digər bir göstəricisi də müxtəlif ölkələrdə keçirilən elmi məclislər haqqında informasiyanın birinci ona bildirilməsidir. Əlidən vaxtaşırı olaraq ünvanımıza fayllar göndərərək qarşıdan gələn konfrans və simpoziumlar haqqında bizləri bilgiləndirir.

Bu biobiblioqrafiya Əli Şamilin 70 illiyi münasibətilə tərtib olunmuşdur. Professor Qəzənfər Kazımov seçilmiş əsərlərinin on cildliyini nəşr etdirib. Bir dəfə mənə dedi: Bilirsənmi, bu cildlərlə heç də filan-filan problemləri həll etdiyimi söyləmirəm. Sadəcə filan-filan problemlər barədə düşündüyümü bildirmək istəmişəm. Əli Şamil də öz həyatını çətin problemlər barədə düşünməyə həsr edən insandır. Düşünmədən həll etmək mümkün deyil.

**Ramiz Əskər**

## Ə S Ə R L Ə R İ

**Kitabları**

**1998**

**1. Türk xalqlarının tanınmış adamları** / Şamil Ə., Tahirzadə Ə.; Ensiklopedik məlumat kitabı. Sözlük, layihə. – Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1998. − 84 s.

**2000**

**2. Tanıdığım insanlar.** I kitab / Şamil Ə. – Bakı: "Sumqayıt" nəşriyyatı, 2000. − 156 s.

**2001**

**3. Burulğandan çıxmaq mümkündürmü** / Şamil Ə. – Bakı: Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2001. − 152 s.

**4. Dastanlaşmış ömürlər** / Şamil Ə. – Bakı: "Səda" nəşriyyatı, 2001. − 96 s.

**5. Quzey Kıbrıs** / Şamil Ə. – Bakı: Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2001. − 152 s.

**2006**

**6. Aşıq İsgəndər Ağbabalı** / Şamil Ə., Şamil Əzizə. – Bakı: "Səda" nəşriyyatı, 2006. − 104 s.

**2011**

**7. Uyğur, qaqauz, Quzey Qafqaz türklərinin folkloru və ədəbiyyatı** / Şamil Ə. – Bakı: "Nurlan" nəşriyyatı, 2011. − 412 s.

**2012**

**8. Axısqalı Xəstə Hasan.** (Şeirləri və şeirlərinin yaranması haqqında söhbətlər) / Şamil Ə. – Bakı: "Elm və təhsil" nəşriyyatı, 2012. − 248 s.

**9. Aşıq İsgəndər Ağbabalı.** (Xatirə, məqalə, məktub və sənədlərin işığında) / Şamil Ə., Şamil Əzizə. – Bakı: "Elm və təhsil" nəşriyyatı, 2012. − 148 s.

**10. Qırım sevgisi** / Şamil Ə. – Simferopol: QCİ "Qırım devoquvped neşir" nəşriyyatı, 2012. − 200 s.

**2013**

**11. Axısqalı Xəstə Hasan.** (Şeirləri və şeirlərinin yaranması haqqında söhbətlər) / Şamil Ə. – Almatı: "Elm və təhsil" nəşriyyatı, 2013. − 272 s.

**12. Türkçülüyün qurbanları** (Qazaxıstan) / Şamil Ə. – Bakı: "Elm və təhsil" nəşriyyatı, 2013. − 164 s.

**2014**

**13. Colan türkmanları** (folklor və etnoqrafiya örnəkləri) / Şamil Ə. – Bakı: "Elm və təhsil" nəşriyyatı, 2014. – 142 s.

**2016**

**14. Colan Türkmanları (folklor və etnoqrafiya örnəkləri)** / Şamil Ə.; hazırlayan M.Herisçiyan, redaktə və ətək yazıları H.Umudoğlu. − Təbriz: "Dənizçin" nəşriyyatı, 1395 (2016). – 144 s.

**15. Çıldırlı Aşıq İrfani (Şeirləri, haqqındakı dastan rəvayətlər)**/ Şamil Ə. − Bakı: "Elm və təhsil" nəşriyyatı, 2016. − 248 s.

**2018**

**16. Colan Türkmanları (folklor və etnoqrafiya örnəkləri**) / Şamil Ə., təkrarnəşr, hazırlayan M.Herisçiyan, redaktə və ətək yazıları H.Umudoğlu. –Təbriz: "Dənizçin" nəşriyyatı. 1397 (2018). − 144 s.

**17. Dissident sorağında** / Şamil Ə., Şamil Əzizə. − Bakı: "Elm və təhsil" nəşriyyatı, 2018. − 204 s.

**18. В поисках диссидентов** / **Шамиль А., Шамиль Азиза.** − Баку: Издательство "Elm və təhsil", 2018. − 156 с.

**Tərtib etdiyi kitablar**

**1999**

**19. Gültəkin-Əmin Abid.** Buzlu cəhənnəm / Tərtib edən Şamil Ə. – Bakı: "Günəş" nəşriyyatı, 1999. − 96 s.

**20. Uşaq ensiklopediyası (nədir? kimdir?).** III cild / Tərtib edən Şamil Ə. – Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1999. − 352 s.

**2002**

**21. Uzaq dağların adamı** / İ.Ö.Vəliyevin həyat və yaradıcılığı haqqında; tərtib edənlər Şamil Ə., Əliyeva T., Hacıyeva L., Qəhrəmanova N. – Bakı: Azərbaycan Ensiklopediyası NPB, 2002. − 324 s.

**2004**

**22. Ağaoğlu B.E.** Solovkidə gördüklərim / Tərtib edən Şamil Ə. – Bakı: "Günəş" nəşriyyatı, 2004. − 80 s.

**2009**

**23. Koroğlu dastanı** (Əli Kamali arxivindəki variantlar) / Tərtib edən Şamil Ə. – Bakı: "Nurlan" nəşriyyatı, 2009. – 396 s.

**2012**

**24. Folklor və tariximiz mövzusunda respublika elmi konfransının materialları.** (19-20 noyabr 2012) / Tərtib edənlər Şamil Ə., Saleh V. – Bakı: "Elm və təhsil" nəşriyyatı, 2012. − 248 s.

**2013**

**25. Aşıq sənətinin tarixi inkişaf yolları və Aşıq Şəmşir mərhələsi mövzusunda beyəlxalq elmi konfransın materialları.** (5 dekabr 2013) / Tərtib edənlər Şamil Ə., Qəzənfərqızı A. – Bakı: "Elm və təhsil" nəşriyyatı, 2013. − 308 s.

**26. Folklorun toplanması və sistemləşdirilməsi problemləri mövzusunda respublika elmi kinfransının materialları.** (5 iyun 2013) / Tərtib edənlər Şamil Ə., Qəzənfərqızı A. – Bakı: "Elm və təhsil" nəşriyyatı, 2013. − 240 s.

**2016**

**27. Əmin Abid.** Azərbaycan türklərinin ədəbiyyatı tarixi // Tərtibçilər və ön söz müəllifləri Şamil Ə., Əhmədov B. – Bakı: "Elm və təhsil", 2016. – 240 s.

**28. Pof.Dr. Hacali Necefoğluna Armağan** // Düzenleme kurulu Şamil A., Pidvoynıy V., Alekberli A., Özkaya S., Gazanfarkızı A. − İzmir, 2016.

**29. Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər.** Elmi sessiyanın materialları. (10 iyun 2016-cı il). − Bakı: "Elm və təhsil" nəşriyyatı, 2016. − 100 s.

## Redaktoru olduğu kitablar

**1997**

**30. Novruzov İ.** Azərbaycan kartı (İran xatirələri) / Ön söz: Vəliyev İ., Nəzərli S., Cabbar E.; redaktoru Şamil Ə. – Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1997. − 160 s.

**2007**

**31. Məmmədzadə M.** Azərbaycanda köylü hərəkatı. Lenin milli siyasəti / Redaktoru Şamil Ə. – Bakı, 2007. − 144 s.

**32. Rəhimoğlu A.** Elçibəyçi düşüncə sistemi və onun "Bütövləşmə, millətləşmə, dövlətləşmə!" / Redaktoru Şamil Ə. – Bakı, 2007. − 56 s.

**2008**

**33. Rəhimoğlu A.** Azərbaycan türkcəsi ədəbi dilində bütövləşmə və düzgün yazı qaydaları (Azərbaycan türkcəsi ədəbi dilində düzgün yazmağı öyrənənlər üçün yardımçı vəsait) / Redaktoru Şamil Ə. – Bakı: "Apostrof" nəşriyyatı, 2008. – 216 s.

**2010**

**34. Məxdumqulu Fəraqi.** Seçilmiş əsərləri / Türkməncədən uyğunlaşdıran və ön söz müəllifi Əskər R., redaktoru Şamil Ə. – Bakı: MBM, 2010. − 448 s.

**35. Molla Nəfəs.** Bu məkana gəlmisəm / Türkməncədən uyğunlaşdıran və ön söz müəllifi Əskər R., redaktoru Şamil Ə. – Bakı: MBM, 2010. − 160 s.

**36. Molla Nəfəs.** Seçilmiş əsərləri / Türkməncədən uyğunlaşdıran və ön söz müəllifi Əskər R., redaktoru Şamil Ə. – Bakı: MBM, 2010. − 240 s.

**37. Zanet T.** Ana dilim / Qaqauzcadan uyğunlaşdıran və ön söz müəllifi Əskər R., redaktoru Şamil Ə. – Bakı: MBM, 2010. − 104 s.

**2011**

**38. Əndəlib Nurməhəmməd.** Seçilmiş əsərləri / Türkməncədən uyğunlaşdıran və ön söz müəllifi Əskər R., redaktoru Şamil Ə. – Bakı: MBM, 2011. − 240 s.

**2014**

**39. İllər yorğun, mən yorgun...** (Ramiz Əskər-60) / Tərtibçi Əskər N., redaktoru Şamil Ə. – Bakı: Elm və təhsil, 2014. − 204 s.

**2016**

**40. Asker R.** Kutadgu Bilig Bibliyografyası / Redaktoru Şamil Ə., Əskər N. – Bakü, 2016. – 292 s.

**41. Asker R.** Bağımsızlık Dönemi Azerbaycan Edebiyatı / Redaktoru Şamil Ə., Əskər N. – Bakü, 2016. – 280 s.

**42. Qız Cibək. Qazax məhəbbət dastanı** / Qazaxcadan uyğunlaşdıran və ön söz müəllifi Əskər R., redaktoru Şamil Ə., Əskər N. – Bakı: BXQR, 2016. – 244 s.

**43. Rəhimoğlu A.** Bütövlük qibləsinin Elçibəy yolu / Redaktoru Şamil Ə. − Bakı, "Elm və təhsil", 2016. − 132 s.

**44. Rəhimoğlu A.** Sosiologiyada partiyadaxili qruplaşmalar / Redaktoru Şamil Ə. − Bakı, "Elm və təhsil", 2016. − 96 s.

**45. Turan Osman.** Türk cahan hakimiyyəti məfkurəsi tarixi / Türkcədən uyğunlaşdıran və ön söz müəllifi Əskər R., redaktoru Şamil Ə., Əskər N. – Bakı: BXQR, 2017. – 544 s.

**2017**

**46. İdeologiya (məqalələr toplusu)**/ Redaktoru Şamil Ə. − Bakı: "Elm və təhsil" nəşriyyatı, 2017.

**47. Əskər R., Əskər N.** Kitabi-Dədə Qorqud. Biblioqrafik göstəricisi. I cild. / İxtisas redaktoru Şamil Ə. – Bakı, BXQR, 2017. – 624 s.

**48. Əskər R., Əskər N.** Kitabi-Dədə Qorqud. Biblioqrafik göstəricisi. II cild. / İxtisas redaktoru Şamil Ə. – Bakı, BXQR, 2017. – 336 s.

**49. Asker R.** Yusuf Balasaguni ve Kutadgu Bilig Bibliyografyası / Redaktoru Şamil Ə., Əskər N. – Bakü, 2017. – 354 s.

**50. Qəfəsoğlu İbrahim.** Türk milli kültürü / Türkcədən uyğunlaşdıran və ön söz müəllifi Əskər R., redaktoru Şamil Ə., Əskər N. – Bakı: BXQR, 2017. – 474 s.

## M Ə Q A L Ə L Ə R İ, M Ə R U Z Ə L Ə R İ, T E Zİ S L Ə R İ
## (Azərbaycan türkcəsində)

### 1972

**51. Əmin Abidin Sovet dövrü publisistikasında ədəbiyyat məsələləri** // S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin tələbə və gənc alimlərinin konfransının tezisləri. – Bakı: ADU nəşriyyatı, 1972.

### 1974

**52. Qardaşoğlanları kimdir?** // “Sovet Astarası” qəzeti. − 1974, 20 avqust. − №98(3139). − S. 3.

**53. Mətbuat tariximizdən: Qardaşoğlanları kimdir?** (“Molla Nəsrəddin” jurnalında “Qardaşoğlanları” imzası ilə yazan müəlliflər haqqında) // “Müxbir” jurnalı. – 1974. − №6.

### 1978

**54. İnci xəzinəsi** (eyni adlı kitab haqqında) // “Şərq qapısı” qəzeti. − 1978, 12 mart. − №60(11978).

**55. Qədim abidə tədqiq edilir** (Ş.Cəmşidovun “Kitabi-Dədə Qorqud” kitabı haqqında) // “Şərq qapısı” qəzeti. − 1978, 31 dekabr. − №300(12218).

**56. Quraşdırıcılar** // “İnşaatçı” qəzeti. − 1978, 28 noyabr.

### 1979

**57. Yüksəliş illəri** // “Sovet kəndi” qəzeti. − 1979, 26 may.

**58. Məktəb muzeyi** // “Azərbaycan müəllimi” qəzeti. − 1979, 18 aprel.

**59. Pillələr** // “Azərbaycan gəncləri” qəzeti. − 1979, 22 fevral.

**60. Sözün qüdrti** // “Sovet kəndi” qəzeti. − 1979, 6 yanvar.

**61. Şahmatçı Aliyə** // “Sovet kəndi” qəzeti. − 1979, 21 aprel.

**62. Şahmatçılar ailəsi** // “Azərbaycan müəllimi” qəzeti. − 1979, 21 dekabr.

## 1980

**63. Axtarış həvəsilə** // “Sovet kəndi” qəzeti. − 1980, 28 iyun.

**64. Balıqçılıq təsərrüfatı vacibdir** // “Sovet kəndi” qəzeti. − 1980, 27 may.

**65. Bir ömrün yarpaqları** // “Mədəni maarif işi” jurnalı. − 1980. − №1.

**66. Dostluğun sorağı** // “Azərbaycan müəllimi”qəzeti. − 1980, 11 iyul.

**67. Etimad asan qazanılmır** // “Azərbaycan müəllimi” qəzeti. − 1980, 20 fevral.

**68. Əlincənin gənc tədqiqatçıları** // “Azərbaycan müəllimi” qəzeti. − 1980, 10 sentyabr.

**69. Gözəl töhfə** (Əli Nazimin “Seçilmiş əsərləri” haqqında) // “Sovet Naxçıvanı” qəzeti. − 1980, 13 yanvar. − №10(12528).

**70. Ömürdə qalan izlər** // “Azərbaycan qadını” jurnalı. − 1980. − №7.

## 1981

**71. Aşığın vətən həsrəti** (Aşıq Alının anadan olmasının 180 illiyi münasibətilə) // “Sovet Naxçıvanı” qəzeti. − 1981, 18 sentyabr. − №222(13045).

**72. Drujina Salmanın adını daşıyır** // “Azərbaycan gəncləri” qəzeti. − 1981, 15 iyun.

**73. Kiçik göllərə diqqət //** “Sovet kəndi” qəzeti. − 1981, 14 aprel.

**74. Naxçıvanın yaşıl apteki //** “Sovet kəndi” qəzeti. − 1981, 11 noyabr.

**75. Üç sevinc //** “Sovet kəndi” qəzeti. − 1981, 12 fevral.

**76. Zəmanədən narazı aşıq** (Aşıq Alının anadan olmasının 180 illiyi münasibətilə) // “Sovet Naxçıvanı” qəzeti. − 1981, 17 noyabr. − №271(13094).

**77. 37 il sonra görüş** // “Azərbaycan pioneri” qəzeti. − 1981, 10 aprel.

**1982**

**78. El qəhrəmanları xalq yaradıcılığında.** Telli Qara // “Sovet Naxçıvanı” qəzeti. − 1982, 30 oktyabr. − №256(13358).

**79. İllər, uğurlu illər** // “Azərbaycan gəncləri” qəzeti. − 1982, 26mart.

**80. Qızılvəngin sabahı //** “Sovet kəndi” qəzeti. − 1982, 15 mart.

**81. Ömürdə qalan izlər** // Söz və iş (məqalələr toplusu), Bakı: “Yazıçı” nəşriyyatı. – 1982, − S. 193-204.

**82. Pedaqoq, alim Əmin Abid** // “Azərbaycan müəllimi” qəzeti. − 1982, 2 iyul. − №53(3657). − S. 4.

**83. Sabahın üzümçüləri** // “Azərbaycan müəllimi” qəzeti. − 1982, 1 iyul.

**84. Naxçıvanda kitab bayramı** // “Kommunist” qəzeti. − 1982, 15 iyun.

**1983**

**85. Aşıq Alının ustadı kimdir?** Azərbaycan aşıqlarının IV qurultayı qarşısında // "Sovet Naxçıvanı" qəzeti. − 1983, 27 aprel. − №98(13533).

**86. Bərpaçı bənna //** "Sovet kəndi" qəzeti. − 1983, 6 avqust.

**87. El qəhrəmanları xalq yaradıcılığında.** Deməyin meydandan qaçdı Mirzalı // "Sovet Naxçıvanı" qəzeti. − 1983, 15 oktyabr. − №239 (13674).

**88. Qalaboynu partlayış ərəfəsində //** "Sovet kəndi" qəzeti. − 1983, 17 may.

**89. Türkmən inciləri** (Klassik türkmən şeir antologiyası haqqında) // "Sovet Naxçıvanı" qəzeti. − 1983, 30 oktyabr. − №252(13687).

**90. Maraqlı adamlar. Hər gələn baxar gedər //** "Sovet kəndi" qəzeti. − 1983, 6 avqust.

**1984**

**91. Abidələrimizə məhəbbət** // "Qobustan" jurnalı. – 1984. − №3.

**92. Billur sarayın qəhrəmanları //** "Sovet kəndi" qəzeti. − 1984, 13 noyabr.

**93. El qəhrəmanları xalq yaradıcılığında.** Dastanlaşmış ömür. (Abbasqulu bəy Şadlinski haqqında) // "Sovet Naxçıvanı" qəzeti. − 1984, 15 may. − №113(13851).

**94. El qəhrəmanları xalq yaradıcılığında.** Kəsəmənli Qorxmaz və Heydər // "Sovet Naxçıvanı" qəzeti. − 1984, 15 dekabr. − №289(140025). − S. 4.

**95. El sənətkarlarımız Xəstə Həsən** // "Sovet Naxçıvanı" qəzeti. − 1984, 20 mart. − №67(13805).

**96. Əbədi** // "Araz" almanaxı. – Bakı: "Yazıçı" nəşriyyatı. − 1984.

**97. Əyilməzlik timsalı Əlincə** // "Sovet Naxçıvanı" qəzeti. − 1984, 30 iyul. − №179(13916).

**98. Gündoğandan günbatana** (Şair Adil Cəmilin eyni adlı kitabı haqqında) // "Əmək bayrağı" qəzeti. − 1984, 16 mart. − №32(785).

**99. Qəhrəmanlıq dastanlarımıza aid tədqiqatlar** (Rüstəm Rüstəmzadənin "El qəhrəmanları xalq ədəbiyyatında" kitabı haqqında) // "Sovet Naxçıvanı" qəzeti. − 1984, 30 noyabr. − №277(14013).

**100. Maraqlı müddəalar toplusu** ("Azərbaycan filologiyası məsələləri" kitabı haqqında) // "Sovet Naxçıvanı" qəzeti. − 1984, 22 yanvar. − №18(13756).

**101. Memarlıq abidələrimiz. Şahtaxtı hamamı** // "Sovet Naxçıvanı" qəzeti. − 1984, 13 aprel. − №87(13825).

**102. Naxçıvanda N.Gəncəvinin əsərləri ilə səsləşən deyimlər** // "Sovet Naxçıvanı" qəzeti. − 1984, 15 fevral. − №43(13781).

**103. Partiyanın sadiq əsgəri** (Heydər Vəzirov haqqında) // "Sovet Naxçıvanı" qəzeti. − 1984, 29 iyun. − №152(13890).

**104. Sənətkar haqqında söz** (Z.Qiyasbəylinin "İmran Qasımov" monoqrafiyası haqqında) // "Sovet Naxçıvanı" qəzeti. − 1984, 23 sentyabr. − №223(13961).

**105. Ülvi hisslər insanı dəyişir** (Diqqət! Film çəkilir. "Gümüşü gölün sirri" filminin quruluşçu rejissoru Eldar Quliyevlə müsahibə) // "Sovet Naxçıvanı" qəzeti. − 1984, 14 avqust. − №189(13927).

**106. Yaddaşlarda yaşamış incilər** ("Azərbaycan aşıqları və el şairləri" kitabı haqqında) // "Sovet Naxçıvanı" qəzeti. − 1984, 6 mart. − №57(13795).

**107. Yenilik səmərə verir** // "Sovet kəndi" qəzeti. − 1984, 13 noyabr.

## 1985

**108. Axtarış davam edir** (Arxeoloq Vəli Əliyevlə II Kültəpə haqqında müsahibə) // "Sovet Naxçıvanı" qəzeti. − 1985, 15 oktyabr. − №240(14278).

**109. Aşıq Cəlil** // "Sovet Naxçıvanı" qəzeti. − 1985, 15 dekabr. − №291(14329).

**110. Dünyanın ilk dastanı Azərbaycan dilində** (Bilqamıs dastanı haqqında) // "Sovet Naxçıvanı" qəzeti. − 1985, 9 avqust. − №184(14222).

**111. Memarlıq abidələrimiz.** Şahtaxtı hamamı // "Qobustan" jurnalı. – 1985. − №1. – S. 13-15.

**112. Sənədli və bədii lentlər ustası** (Azərfilmin operatoru Zaur Məhərrəmovla müsahibə) // "Sovet Naxçıvanı" qəzeti. − 1985, 16 aprel. − №88(14126).

**113. Şərəfli həyat yolu** (İnqilabçı N.Rzayev haqqında) // "Sovet Naxçıvanı" qəzeti. − 1985, 28 dekabr. − №301(14542).

**114. Tikan** // "Araz" almanaxı. – Bakı: "Yazıçı" nəşriyyatı. − 1985.

**115. Ululu Kərimi axtaran tapar** // "Sovet Naxçıvanı" qəzeti. − 1985, 29 iyun. − №152(14493).

**116. Jurnalistin qeydləri, Qayğı və kömək lazımdır** // "Sovet Naxçıvanı" qəzeti. − 1985, 18 sentyabr. − №217(14255).

## 1986

**117. "Köçəri" havası** // "Sovet kəndi" qəzeti. − 1986, 9 yanvar.

**118. A.Şadlinski-100. Nəsillərə nümunə, Qırmızı komandan** / Şamil Ə., Rəşidzadə L. // "Sovet Naxçıvanı" qəzeti. − 1986, 29 noyabr.

**119. Əmin Abid bayatılarımız haqqında** // “Elm və həyat” jurnalı. – 1986. – №11. – S. 26-27.

**120. Əmin Abidin “Ədəbiyyat tarixi”** // “Ədəbiyyat və incəsənət” qəzeti. – 1986, 12 dekabr. – №50(2237). – S. 6.

**121. Xəstə Həsən və müasirləri** // “Sovet Gürcüstanı” qəzeti. – 1986, 1 iyul. – №79(9162).

**122. İkinci Mirzə Cəlil** // “Sovet Naxçıvanı” qəzeti. – 1986, 27 dekabr. – №297(14638).

**123. İnqilabi şöhrət muzeyi** // “Azərbaycan müəllimi” qəzeti. – 1987, 23 oktyabr.

**124. “Qırmızı tabor” muzeyi** // “Kommunist” qəzeti. – 1986, 22 noyabr.

**125. Qırmızı tabor Şərurda** // “Sovet kəndi” qəzeti. – 1986, 29 noyabr.

**126. Şairin hədiyyəsi (Bəxtiyar Vahabzadə)** // “Kommunist” qəzeti. – 1986, 13 oktyabr.

**127. Şərəfli ömür yolu** // “Sovet Naxçıvanı” qəzeti. – 1986, 28 oktyabr. – №351(14592).

**128. Ululu Kərimi haralıdır?** // “Qabaqcıl” qəzeti. – 1986, 22 mart. – №35(3066).

**1987**

**129. Ailə estafetinin davamçısı** // Damla-damla göl olar, Bakı: “Yazıçı” nəşriyyatı. – 1987. – S. 152-160.

**130. Axundovun əsərlərinin nəşri tarixindən** // “Kitablar aləmində” jurnalı. – 1987. – №3. – S. 16-17.

**131. Azmanlardan biri - Əmin Abid** // “Elm” qəzeti. – 1987, 5 mart. – №9(82).

**132. Dastanın ilk azərbaycanlı tədqiqatçısı** // “Azərbaycan” jurnalı. – 1987. – №4. – S. 179-182.

**133. Körpü** // "Sovet Naxçıvanı" qəzeti. − 1987, 14 yanvar. − №11(14652).

**134. Körpü** // "Araz" almanaxı. – Bakı: "Yazıçı" nəşriyyatı. – 1987.

**135. Körpü** // "Sovet kəndi" qəzeti. − 1987, 20 oktyabr.

**136. Ot kökü üstə bitər** // Müasirlərimiz, Bakı: "Gənclik" nəşriyyatı. – 1987. − S. 127-128.

**137. Partiyanın sadiq əsgəri** // "Azərbaycan dəmiryolçusu" qəzeti. − 1987, 30 oktyabr.

**138. Sədinin rəsmləri** // "Azərbaycan pioneri" qəzeti. − 1987, 19 iyun.

**139. Torpağın keşiyində** // Müasirlərimiz, Bakı: "Gənclik" nəşriyyatı. – 1987. − S. 112-113.

**140. Vətəndaş qeyrəti ilə** // Müasirlərimiz, Bakı: "Gənclik" nəşriyyatı. – 1987. − S. 56-58.

**141. Yaddaşlarda yaşamış incilər** (Azərbaycan aşıqları və el şairləri" kitabı haqqında ("Elm" nəşriyyatı, 1983-cü il) // "Sovet Naxçıvanı" qəzeti. − 1987, 6 mart. − №57.

## 1988

**142. Qəhrəmanlar xalq yaradıcılığında** (Elmi konfransdakı məqalənin tezisi) // "Şərur-qədim diyar". – İliç, 1988. − S. 19-20.

**143. Sel arxeoloqun bələdçisidir** // "Sovet Naxçıvanı" qəzeti. − 1988, 30 iyun. − №151(13586).

## 1989

**144. Əmin Abid Sabir haqqında** // XX əsr. Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutu. – Bakı: "Elm" nəşriyyatı, 1989. − S. 221-228.

**145. Hara köçür bu köçəri?** (Tulumçalan Cəbi haqqında) // “Qobustan” jurnalı. – 1989. − №1. − S. 93-94.

**146. Xanağada istiot kolu** // “Kommunist” qəzeti. − 1989, 25 avqust. − S. 4.

**147. Röyada gördüm sizi** (Türkiyəli Aşıq İslam haqqında) // “Odlar yurdu” qəzeti. − 1989, 3 fevral.

**148. Torpaq komissarının taleyi** (Heydər Vəzirov haqqında) // “Sovet kəndi” qəzeti. − 1989, 15 iyun.

**149. “Turunc” fərdi layihə təqdim edir** // “Azərbaycan gəncləri” qəzeti. − 1989, 28 mart.

**150. Gözaydınlığı** // “Odlar yurdu” qəzeti. − 1989. − №12.

## 1990

**151. Ali məclisin etirazı** // “Azadlıq” qəzeti. − 1990, 22 noyabr. − №22(24). − S. 3.

**152. Naxçıvan (müəllimlərin tətili)** // “Azadlıq” qəzeti. − 1990, 7 mart.

**153. Naxçıvan: Son günlər** // “Azadlıq” qəzeti. − 1990, 4 iyul. − №2(5). − S. 7.

## 1991

**154. Ali məclisin iki sədri var** // “Azadlıq” qəzeti. − 1991, 2 avqust. − S. 2.

**155. Boykot mitinqi** // “Azadlıq” qəzeti. − 1991, 9 avqust. − №32(62). − S. 1.

**156. Culfa dəmiryorlçularının tələbi** // “Azadlıq” qəzeti. − 1991, 9 may.

**157. H.Əliyevin L.Ter-Petrosyanla dialoqu** // “Azadlıq” qəzeti. − 1991, 17 sentyabr. − №40(70).

**158. Hələ ki sakitlikdir** // “Azadlıq” qəzeti. − 1991, 5 noyabr.

**159. Naxçıvan** // “Azadlıq” qəzeti. − 1991, 16 avqust. − S. 2.

**160. Naxçıvan** // “Azadlıq” qəzeti. − 1991, 23 avqust. − S. 2.

**161. Naxçıvan** // “Azadlıq” qəzeti. − 1991, 9 avqust. − №32(62). − S. 1.

**162. Naxçıvan: ruslar vasitəçilik təklif edirlər** // “Azadlıq” qəzeti. − 1991, 24 sentyabr.

**163. Naxçıvan: yollar bağlanıb, qəzetlər gəlmir** // “Azadlıq” qəzeti. − 1991, 27 sentyabr.

**164. Naxçıvan (iki xəbər)** // “Azadlıq” qəzeti. − 1991, 12 iyul. − S. 2.

**165. Kooperativçilər və partiyaçılar** // “Azadlıq” qəzeti. − 1991, 2 avqust. − S. 8.

**166. Qaşınmayan yerdən qan çıxarırlar** // “Azadlıq” qəzeti. − 1991, 4 aprel. − №14(44). − S. 3.

**167. Qələbə?** // “Azadlıq” qəzeti. − 1991, 6 sentyabr.

**168. Naxçıvan** // “Azadlıq” qəzeti. − 1991, 12 iyul. − S. 2.

**169. Naxçıvan(iki xəbər)** // “Azadlıq” qəzeti. − 1991, 5 iyun. − S. 3.

**170. Naxçıvan: 31 dekabr həmrəylik günü** // “Azadlıq” qəzeti. − 1991, 3 yanvar. − S. 2.

**171. Naxçıvanda DTK-nın sonu** // “Azadlıq” qəzeti. − 1991, 31 dekabr. − №70(100).

**172. Sessiya haqqında xəbər** // “Azadlıq” qəzeti. − 1991, 12 aprel. − №15(45). − S. 2.

**173. Şərur** (AXC rayon şöbələrinin konfransları) // “Azadlıq” qəzeti. − 1991, 28 fevral. − S. 3.

**174. Torpaq komissarının taleyi** // “Ağ ləkələr silinir” (məqalələr toplusu). – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1991.

**175. Yerevan-Kafan qatarının qarşısı kəsilib** // “Azadlıq” qəzeti. − 1991, 13 sentyabr.

**1992**

**176. Birləşmək ümidi ilə ayrılıq** // “Azadlıq” qəzeti. − 1992, 29 oktyabr.

**177. Burulğandan çıxmaq mümkündürmü?** // “Azadlıq” qəzeti. − 1992, 3 mart. − №18(118). − S. 3-4.

**178. Cənubi Azərbaycan rəssamları** // “İncəsənət” qəzeti. − 1992, 6 may.

**179. Culfada İK seçkisi** // “525-ci qəzet”. − 1992, 16 noyabr.

**180. Çörək ucuz olarsa basılmaz vətən** // “Azadlıq” qəzeti. − 1992, 18 iyul.

**181. Deputatların çətin günləri** // “Azadlıq” qəzeti. − 1992, 25 fevral. − №16(116). − S. 3.

**182. Döyüşlər səngimək bilmir** // “Azadlıq” qəzeti. − 1992, 27 may. − №43(143).

**183. Döyüşlər səngiyib, amma…** // “Azadlıq” qəzeti. − 1992, 13 iyun.

**184. Ermənilər yenə aldadır** // “Azadlıq” qəzeti. − 1992, 27 may. − №43(143).

**185. Əlvida, vəzifə** // “Azadlıq” qəzeti. − 1992, 18 fevral. − №14(114).

**186. Heydər Əliyev Mütəllibovun çağrışına getmədi** // “Azadlıq” qəzeti. − 1992, 17 may. − №39(139) . − S. 8

**187. Heydər Əliyev siyasi rəqiblərini aradan qaldırmaq üçün bütün vasitələrə əl atdı** // “Azadlıq” qəzeti. − 1992, 27 avqust. − №73(173). − S. 3.

**188. Heydər Əliyev: Naxçıvandan çıxmaq fikrim yoxdur** // “Azadlıq” qəzeti. − 1992, 23 may.

**189. Hərbiçilərin növbəti “məşqi”** // “Azadlıq” qəzeti. − 1992, 27 may. − № 43(143).

**190. Huşəng Qaçaq Nəbinin nəticəsidir?** // “Səs” qəzeti. − 1992, 23 aprel.

**191. İxracatda Naxçıvana “bahalı mal” qovğası** // “Azadlıq” qəzeti. − 1992, 29 iyul. − №61(161). − S. 8.

**192. İran: Seçkilər qarşısında** // “Azadlıq” qəzeti. − 1992, 3 aprel. − S. 4.

**193. İran: Seçkilərdən sonra** // “Azadlıq” qəzeti. − 1992, 20 may. − S. 8

**194. Qarşıdurma artır** // “Azadlıq” qəzeti. − 1992, 8 may. − S. 2.

**195. Mahmud Rəncbəri kimə xidmət edir?** // “Oğuz eli” qəzeti. − 1992, 9 iyul.

**196. Mail olsan Mustafanı taparsan** // “Oğuz eli” qəzeti. − 1992, 25 iyun. − №17. − S. 5.

**197. Müştərək bazar niyə açıldı, niyə bağlandı** // “Azadlıq” qəzeti. − 1992, 31 dekabr. − №127(227).

**198. Naxçıvan** // “Azadlıq” qəzeti. − 1992, 12 may. − №38(138). − S. 2.

**199. Naxçıvan** // “Azadlıq” qəzeti. − 1992, 5 may. − S. 2.

**200. Naxçıvanın çətin günləri** // “İncəsənət” qəzeti. − 1992, 26 iyul.

**201. Naxçıvan niyə mühasirədədir?** // “Azadlıq” qəzeti. − 1992, 3 dekabr. − №115(215). − S. 4.

**202. Naxçıvanda nə baş veribdi** // “İncəsənət” qəzeti. − 1992, 11 noyabr. − №22(43). – S. 7.

**203. On gün İran zindanlarında** // “Azadlıq” qəzeti. − 1992, 31 oktyabr. − №101(201).

**204. Ordubadda hakimiyyət böhranı** // “Azadlıq” qəzeti. − 1992, 17 mart.

**205. Ölüləri gecə dəfn edirlər** // “Azadlıq” qəzeti. − 1992, 23 may.

**206. Prezidentin istirahət saatlarında** (Quzey Kıbrıs Türk Cümhuriyyətinin prezidenti Rauf Denktaşın bədii fotoları haqqında) // “İncəsənət” qəzeti. − 1992, 25 noyabr. − №23(44) . − S. 3.

**207. Savəli Tilimxan** // “Ozan” qəzeti. − 1992, 28 may. − №8. − S. 1.

**208. Sessiya baş tutmadı** // “Azadlıq” qəzeti. − 1992, 11 avqust.

**209. Sərhəddə döyüş, şəhərdə yürüş** // “Azadlıq” qəzeti. − 1992, 30 may.

**210. Şeytan üçbucağı yaranacaqmı?** // “Azərbaycan” qəzeti. − 1992, 11 noyabr.

**211. Təbrizdə teatr** // “Mədəniyyət” qəzeti. − 1992, 25 iyun. − №17. − S. 5.

**212. Tufanqabağı sakitlik** // “Azadlıq” qəzeti. − 1992, 29 iyul. − №61(161). − S. 5.

**213. Ukraynalı analar** // “Azadlıq” qəzeti. − 1992, 3 iyun.

**214. Urmiya aşıqları** // “Ozan” qəzeti. − 1992, 31 iyul. − №10 (10). − S. 1-2.

**215. Urmiya gördüyüm kimi** // “Oğuz eli” qəzeti. − 1992, 28 may.

**216. Üç xəbər** // “Azadlıq” qəzeti. − 1992, 10 mart.

**217. Vətən məhəbbəti güclü çıxdı** // “Azadlıq” qəzeti. − 1992, 25 iyul.

**218. Qərbi Azərbaycan mədəniyyəti** // “Mədəniyyət” qəzeti. − 1992,18 iyun.

**1993**

**219. Bir daha Ağ Aşıq haqqında** // “Oğuz eli” qəzeti. − 1993, 14 yanvar. − №1(30). − S. 8.

**220. Gözə kül üfürənlər** // “Müxalifət” qəzeti. − 1993, 11 dekabr. − №124(275). − S. 6-7.

**221. Heydər Əliyev keçmişə münasibətini dəyişir** // "525-ci qəzet". − 1993, 13 mart. − №14. − S. 2, 7.

**222. İran: Cənubi Azərbaycan niyə parçalanır** // "Azadlıq" qəzeti. − 1993, 27 fevral.

**223. Kərküklü Yunis Sidiqlə müsahibə** // "Azərbaycan" qəzeti. − 1993, 23 yanvar. − №14(527). − S. 5.

**224. Məclis iflic vəziyyətində** // "Müxalifət" qəzeti. − 1993, 18 dekabr. − №127(278). − S. 1, 6.

**225. Naxçıvanda İran nümayəndəliyi** // "Azadlıq" qəzeti. − 1993, 12 yanvar.

**226. Ovsunçu Cəlil** // "Azərbaycan təbiəti" jurnalı. – 1993. − №2(99). − S. 26-28.

**227. Ümüdlər göyərmədi** // "Müxalifət" qəzeti. − 1993, 28 dekabr. − №131(281). − S. 5.

**1994**

**228. Ağız ədəbiyyatından: Əbusaleh** // "Güney Azərbaycanı" dərgisi. – 1994. − №1. − S. 31-33.

**229. Bir daha Ağ Aşıq haqqında** // "Oğuz eli" qəzeti. – 1994. − №1(30). − S. 8.

**230. Bütün qəhrəmanlıqlara görə zindan** / Şamil Ə., Səlcuq E. // "Azadlıq" qəzeti. − 1994, 5 iyul. − №65(432). − S. 4.

